**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Ali məktəblərin hazırlıq şöbələri üçün**
**«Nitqin elmi üslubu (beynəlxalq hüquq və beynəlxalq münasibətlər təmayülü)» fənninin**

# PROQRAMI

*Azərbaycan Respublikası Təhsil Nazirinin 03.07.2014-cü il tarixli əmri ilə təsdiq edilmişdir (əmr № 767)*

**Bakı – 2014**

**Tərtib edən:** *dos.Reyhan Yusif qızı Həbibli*

**Redaktor:** *prof.Sənubər Əlövsət qızı Abdullayeva*

**Rəyçilər:** *dos.Məhbubə Əbdülhəmid qızı Qurbanova*

*dos.Həcər Adil qızı Qasımova*

dos.*Rəfiqə Ağabala qızı Qasımova*

## İzahat vərəqi

***Fənnin tədrisinə ayrılan saatların miqdarı – 198 saat***

Tədris-elmi və elmi-pedaqoji ədəbiyyatın dili elmi üslubun xüsusi bir sahəsidir. Nitq üslubları parametrlərinin təsvirinin, onların qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsinin, dəqiq terminlərin tapılmasının vacibliyi şübhəsizdir. Tələbələri həm bütövlükdə elmi dilin qanunauyğunluqları, həm də ayrı-ayrı fənlərin spesifikası ilə tanış etmək də zəruridir. Bu baxımdan elmi dil xüsusiyyətlərinin öyrənilməsi, «Nitqin elmi üslubu» fənninin tədrisi böyük nəzəri və praktik əhəmiyyət kəsb edir.

Burada başlıca məqsəd seçdikləri ixtisasla əlaqədar əcnəbi tələbələrdə nəzəri və praktik cəhətdən ilkin təsəvvürlər yaratmaq, onların nitqini inkişaf etdirməkdir. Fənnin məzmununun, tələbələrə veriləcək biliklərin həcminin və elmi dili öyrətmək sahəsində aparılacaq işlərin əsas istiqamətlərinin müəyyənləşdirilməsi metodik cəhətdən böyük əhəmiyyətə malikdir.

Ali məktəblərin hazırlıq şöbələrində Azərbaycan dilinin tədrisi prosesində tələbələrə dilimizin bəzi mühüm qanunlarını, bir sıra qrammatik anlayışları onların başa düşəcəkləri şəkildə mənimsətmək, şifahi və yazılı nitqini inkişaf etdirmək üzrə iş gedir. Nitq inkişafı hazırlıq şöbələrində bütövlükdə Azərbaycan dili tədrisinin başlıca prinsipidir.

«Azərbaycan dili» fənninin tədrisində əcnəbi tələbələrə fonetika, leksika, morfologiya, sintaksis üzrə sadə, nəzəri məlumatlar verilir, orfoepiya, orfoqrafiya, durğu işarələrinə aid ilkin praktik bilik və bacarıqlar aşılanır. Azərbaycan dilinin bu mühüm sahələri ilə «Nitqin elmi üslubu» fənni arasında əlaqələr yaradılır. Həmin fənnin tədrisi tələbələrin «Azərbaycan dili» dərslərindən aldıqları bilik, bacarıq və vərdişlər zəminində

qurulur, bu iki fənn arasındakı qarşılıqlı, dialektik əlaqələr diqqət mərkəzində saxlanılır.

«Nitqin elmi üslubu (beynəlxalq hüquq və beynəlxalq münasibətlər təmayülü)» fənn proqramı ali məktəblərin hazırlıq şöbələrinin əcnəbi tələbələri üçün olan tədris proqramının əsasında tərtib edilmişdir və nitqin elmi üslubunun tələblərinə əsasən seçilmiş konstruksiyalardan ibarətdir, leksika və mətnlər isə «Beynəlxalq hüquq» və «Beynəlxalq münasibətlər» ixtisaslarının tədris proqramına uyğunlaşdırılmışdır.

Əcnəbi tələbənin nitq qabiliyyətinin inkişaf modeli tədris proqramına uyğun olaraq nəzərdə tutur:

- yazılı və şifahi mətnlərdəki zəruri tədris-peşə informasiyasını adekvat şəkildə qavramağı;
- tədris-peşə xarakterli ünsiyyətdə iştirak etməyi;
- müsahiblə ünsiyyət yaratmağı, onun ifadələrinə adekvat reaksiya verməyi, dəqiqləşdirici suallar verməyi, təkrar soruşmağı, xahişlə müraciət etməyi, əlavələr etməyi, ümumiləşdirməyi;
- qavranılan informasiyaya qiymət verməyi, onun müəllifinin fikri ilə razı olub-olmamasını ifadə etməyi, əks arqumentlər gətirməyi;
- öz fikrini ifadə etməyi, ayrı-ayrı müddəaları dəqiqləşdirmək və izah etməyi;
- bu və ya digər faktla bağlı müsahibin fikrini öyrənməyi.

**Bilik və bacarıqlara olan tələblər:**

***Tələbə bilməlidir:***

- müasir Azərbaycan dilinin funksional müxtəlifliyini;
- dilin üslubi normalarını;
- ünsiyyətin şərtləri və məqsədlərinə uyğun olaraq sinonimik vasitələrin istifadə qanunauyğunluqlarını;
- danışıq səslərinin xüsusiyyətlərini, növlərini;
- söz sonunda q və k samitlərinin işlənmə qaydasını;

- qoşasaitli və qoşasamitli sözlərin yazılış və tələffüz qaydalarını;

- k hərfinin iki səsi ifadə etməsini;

- ahəng qanunu, heca və vurğunun mahiyyətini;

- nitq hissələrinin mahiyyətini, xüsusiyyətlərini, növlərini, yazılışını;

- hal və mənsubiyyət şəkilçilərini;

- sonu q və k ilə bitən sözlərin hallanarkən q-nin ğ-yə, k-nin y-yə keçməsini;

- sözlərin mənaca qruplarını, onların əlamətlərini;

- söz birləşmələrinin mahiyyətini, növlərini;

- cümlənin növlərini, burada durğu işarələrinin işlənmə qaydalarını.

***Tələbə bacarmalıdır:***

- mətni düzgün, ifadəli oxumağı;

- sözlərdə vurğudan düzgün istifadə etməyi;

- mətnin əsas informasiyasını üzə çıxarmağı, elmi məlumatların məzmununu başa düşməyi;

- mətnin strukturu üzərində iş aparmağı, məna bloklarını seçməyi, mətnin hissələri arasında məntiqi əlaqələri müəyyənləşdirməyi;

- mətnin məzmununu nağıl etməyi;

- plan tərtib etməyi;

- lüğətdən istifadə edərək sözləri başa düşməyi;

- mövzu üzrə dialoqda, söhbətdə iştirak etməyi;

- ifadəli nitq qurulması prosesində dil vasitələrindən məqsədəuyğun istifadə etməyi;

- mətndəki sözlərin məna çalarlarını fərqləndirməyi, cümlələrin sadə və mürəkkəb olduğunu müəyyənləşdirməyi;

- məzmuna dair suallara cavab verməyi;

- oxunmuş mətni konspektləşdirməyi.

## Beynəlxalq hüquq anlayışı

Beynəlxalq hüquq – hüquqi normalar sistemidir. Beynəlxalq hüququn funksiyaları. "Beynəlxalq hüquq" termini.

## Beynəlxalq hüququn xüsusiyyətləri

Beynəlxalq hüququn milli hüquqdan fərqli xüsusiyyətləri. Beynəlxalq hüquq sisteminin tərkibi.

## Beynəlxalq ümumi hüquq və beynəlxalq xüsusi hüquq

"Beynəlxalq ümumi və xüsusi hüquq" anlayışları. Bu sahələrin bir-biri ilə bağlılığı. Beynəlxalq ümumi və xüsusi hüquq arasındakı fərqli cəhətlər.

## Müasir beynəlxalq hüququn əsas cəhətləri

Müasir beynəlxalq hüququn səciyyəvi cəhətləri. "Jus cogens" normaları. Beynəlxalq hüquq və öhdəliklər.

## Beynəlxalq hüquq norması

Beynəlxalq hüquq normalarının xarakteri. Bu normaların növləri: ümumi, regional, ikitərəfli, imperativ, dispozitiv, müddətli, müddətsiz, maddi, prosessual, yazılı təsbit olunmuş və təsbit olunmamış normalar.

## Beynəlxalq hüququn məcəlləşdirilməsi

"Məcəlləşdirilmə" ("kodifikasiya") anlayışı. Rəsmi və qeyri-rəsmi məcəlləşdirilmə. Məcəlləşdirilmənin vəzifələri. Məcəlləşdirilmiş beynəlxalq aktlar.

## Beynəlxalq hüququn mənbəyi

"Hüququn mənbəyi" anlayışı. Beynəlxalq hüququn mənbələri. Beynəlxalq müqavilə. Beynəlxalq hüquqi adət. Hüququn ümumi prinsipləri. Məhkəmə qərarları. Tanınmış alimlərin əsərləri. Beynəlxalq təşkilatların qətnamələri.

## Beynəlxalq hüququn əsas prinsipləri

Dövlətlərin suveren bərabərliyi prinsipi. Güc tətbiq etməmək prinsipi. Beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi. Sərhədlərin pozulmazlığı prinsipi. Ərazi bütövlüyü prinsipi. Xalqların özünümüəyyənetmə prinsipi. Dövlətlərin bir-biri ilə əməkdaşlıq etmək prinsipi. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi.

## Beynəlxalq hüququn subyektləri

İlkin subyektlik. Törəmə subyektlik. Dövlətlər. Dövlətəbənzər qurumlar. Beynəlxalq təşkilatlar. Fərd. Transmilli korporasiyalar. Beynəlxalq-hüquqi subyektliyin əsas ünsürləri.

## Beynəlxalq hüquqda tanıma

“Tanıma” anlayışının mahiyyəti. Tanımanın formaları: de-fakto və de-yure tanıma. Tanıma nəzəriyyələri: konstitutiv və deklarativ nəzəriyyə. Tanımanın ifadə yolları.

## Dövlətlərin varisliyi

Dövlətlərin varisliyinin obyektləri. Dövlətlərin varisliyinin yaranma səbəbləri. Varis dövlətin xüsusiyyətləri.

## Beynəlxalq hüquq və dövlətdaxili hüquq

Monizm nəzəriyyəsi. Dualizm nəzəriyyəsi. Koordinasiya nəzəriyyəsi. Beynəlxalq hüquq müddəalarının implementasiyası.Dövlətdaxili implementasiyanın üsulları. Davranış öhdəlikləri. Beynəlxalq müqavilələrin tətbiqinin formaları.

## Ərazi

Ərazi və onun növləri. Dövlət ərazisinin tərkib hissələri. Dövlət sərhədi və növləri. Delimitasiya və demarkasiya. Beynəlxalq çaylar.

## Dövlət yurisdiksiyası

Yurisdiksiyanın növləri. Yurisdiksiyanın prinsipləri. Ərazi yurisdiksiyasının növləri. Vətəndaşlıq yurisdiksiyası. Universal yurisdiksiya. Qoruyucu yurisdiksiya.

## Əhali

“Əhali” anlayışı. Vətəndaşlıq və onun əldə edilməsi üsulları. Əcnəbilər. Dogulma nəticəsində vətəndaşlığın əldə edilməsi prinsipləri. “Naturalizasiya”, “reinteqrasiya”, “vətəndaşlığın bağışlanılması”, “vətəndaşlıqdan çıxma”, “vətəndaşlıqdan məhrum edilmə”, “vətəndaşlığın avtomatik itirilməsi” anlayışları. Optasiya və transfert. İkili vətəndaşlığın xarakteri. Əcnəbilərin rejimi. Mühacir işçilər. Qaçqınlar və daxili məcburi köçkünlər. Sığınacaq hüququ.

## Beynəlxalq müqavilələr hüququ

“Beynəlxalq müqavilələr hüququ” anlayışı. Bu sahə ilə bağlı aktlar və konvensiyalar. Beynəlxalq müqavilənin obyekti, məqsədi, tərəfi. Beynəlxalq müqavilələrin növləri. Beynəlxalq müqavilələrin bağlanmasının mərhələləri. Vəkalət. Müqavilə mətnlərinin hissələri. Müqavilənin qüvvədə olması. Müqavilə mətninin tərtib olunması və qəbulu. Paraflama. Şərti imza atma. İkitərəfli müqavilələrin imzalanması. Müqavilə sənədlərinin mübadiləsi. Ratifikasiya. Beynəlxalq müqavilənin təfsiri. Ratifikasiya sənədi. Depozitari. Qeyd-şərt. Təfsirin növləri. Beynəlxalq müqavilənin xitam olunması və onun şərtləri. Beynəlxalq müqavilənin etibarlılığı. Mütləq və nisbi etibarsızlıq.

## Beynəlxalq təşkilatlar hüququ

Beynəlxalq təşkilatın hüquqi təbiəti. Beynəlxalq təşkilatların növləri, funksiyaları. İlk beynəlxalq təşkilatlar. Beynəlxalq təşkilatın daxili hüququ. Beynəlxalq təşkilatın nizamna-

məsi. Beynəlxalq təşkilatların üzvləri. Daimi müşahidəçi missiyası və funksiyaları. Beynəlxalq təşkilatda üzvlüyün dayandırılması. Beynəlxalq təşkilatların sanksiyaları. Birləşmiş Millətlər Təşkilatı. Baş Assambleyanın komitələri. Təhlükəsizlik Şurası. İqtisadi və Sosial Şura. Beynəlxalq Məhkəmə. BMT Katibliyi. BMT-nin ixtisaslaşdırılmış təsisatları, onların qrupları. Təhlükəsizlik Şurası. Regional təşkilatlar. Ərəb Dövlətləri Liqası. Afrika Birliyi Təşkilatı. Amerika Dövlətləri Təşkilatı. Cənub-Şərqi Asiya dövlətləri Assosiasiyası. Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Avropa Şurası. İslam Konfransı Təşkilatı.

## Diplomatiya və konsulluq hüququ

Diplomatiya və konsulluq hüququnun əsas mənbələri. Bu sahəyə aid konvensiyalar. Dövlətdaxili orqanların növləri. Xarici orqanların növləri. Diplomatik xidmət. Diplomatın keyfiyyətləri. “Persona qrata”, “persona non qrata” anlayışları. Diplomatik nümayəndəliklərin növləri. Diplomatik nümayəndəliyin funksiyaları, heyəti. Diplomatik korpus. Duayen. Kumulyasiya. Diplomatik imtiyazlar və immunitet. Şəxsi immunitet və imtiyaz. Dövlətlərin beynəlxalq təşkilatlar yanında nümayəndəlikləri, onların funksiyaları. Xüsusi missiya. BMT ekspertlərinin imtiyaz və immunitetləri. Konsulluqlar. Konsulluq idarələrinin növləri. Konsulluqların funksiyaları.” Konsul patenti”, “ekzekvatura” anlayışları.

## Beynəlxalq insan hüquqları hüququ

İnsan hüquqları ilə bağlı müqavilələr, onların kateqoriyaları. Ümumi müqavilələr. Universal müqavilələr. Xüsusi mü-

qavilələr. İnsan hüquqlarının təsnifatı. Vətəndaş hüquqları və siyasi hüquqlar. Sosial-iqtisadi və mədəni hüquqlar. Kollektiv hüquqlar. Mütləq hüquqlar. Maddi və implementasiya öhdəlikləri. Maddi öhdəliklərin növləri. Ümumi öhdəliklər. Nəticə öhdəlikləri. İnsan hüquqları müdafiəsinin beynəlxalq mexanizmləri. Davranış öhdəlikləri. Pozitiv öhdəliklər. Müqavilə mexanizmləri. Qeyri-müqavilə mexanizmləri.

## Beynəlxalq humanitar hüquq

"Humanitar hüquq" anlayışı. Beynəlxalq humanitar hüququn məqsədləri. Beynəlxalq silahlı münaqişə. Qarışıq silahlı münaqişə. Beynəlxalq humanitar hüququn implementasiyası. Beynəlxalq humanitar hüququn prinsipləri. Beynəlxalq humanitar hüququn normaları. Müharibənin başlanmasının hüquqi nəticələri. Kombatantlar. Müharibənin sona yetməsinin mərhələləri, onun beynəlxalq-hüquqi formaları. Döyüş aparılmasının qadağan edilmiş metodları, vasitələri.

## Beynəlxalq cinayət hüququ

Beynəlxalq cinayət hüququnun məqsədi. Onun xüsusiyyətləri. Beynəlxalq cinayət hüququ ilə bağlı müqavilələr. Fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyətinin prinsipləri. Nürnberq və Tokio tribunalları. Ekstradisiya. "Beynəlxalq cinayət" anlayışı. Təcavüz, onun mərhələləri. Genosid. İnsanlıq əleyhinə cinayət. Müharibə cinayətləri.

## Beynəlxalq iqtisadi hüquq

Beynəlxalq iqtisadi münasibətlər. Beynəlxalq iqtisadi hüququn subyektləri, mənbələri. İqtisadi əməkdaşlıq. Beynəlxalq iqtisadi hüququn xüsusi prinsipləri. Bu sahə ilə bağlı hüquqi rejimlər. İqtisadi komissiyalar. Beynəlxalq iqtisadi hüququn yarımsahələri. Beynəlxalq ticarət hüququ və mənbələri. Beynəlxalq maliyyə hüququ, onun müqavilə mənbələri. Beynəlxalq Valyuta Fondu. Ümumdünya Bankı. Beynəlxalq investisiya hüququ.

## Beynəlxalq dəniz hüququ

Dəniz və okeanların növləri. Daxili dəniz suları. Ərazi dənizi. Bitişik zona. Müstəsna iqtisadi zona. Açıq dəniz. Beynəlxalq dəniz dibi rayonu. Qapalı dəniz. Beynəlxalq boğazlar. Beynəlxalq kanallar.

## Beynəlxalq hava hüququ

"Hava məkanı" anlayışı. Beynəlxalq hava hüququ üzrə konvensiyalar. Beynəlxalq hava hüququnun prinsipləri. Beynəlxalq hava hüququ üzrə təşkilatlar.

## Beynəlxalq kosmos hüququ

Təbii səma cisimləri. Kosmik obyektlər və onların vurduğu zərər. Yerin süni peykləri.

## Beynəlxalq ekologiya hüququ

Beynəlxalq ekologiya hüququ və onun predmeti. Beynəlxalq ekologiya hüququnun prinsipləri. Ətraf mühitin mühafizəsinə dair sazişlər, müqavilələr. "Yumşaq hüquq" anlayışı. Ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsinin obyektləri.

## Beynəlxalq hüquqda məsuliyyət

Beynəlxalq məsuliyyət institutu. "Məsuliyyətin əsası" anlayışı. Beynəlxalq cinayətin əlamətləri. Beynəlxalq-hüquqi məsuliyyətin növləri. Restitusiya. Kompensasiya. Satisfaksiya. Əks tədbirlər. Retorsiya tədbirləri.

## Beynəlxalq mübahisələrin nizama salınmasının dinc vasitələri

Dinc vasitələr və növləri. Danışıqlar. Xeyirxah xidmətlər. Araşdırma və barışdırma komissiyaları. Arbitraj məhkəməsi. Beynəlxalq Məhkəmə və hakimləri. Kompromis. Məcburi yurisdiksiya. Seçmə sistem.

## Beynəlxalq münasibətlərin mahiyyəti

"Beynəlxalq münasibətlər" nə deməkdir? Bu sahəyə aid ilk mənbələr. Vestfal sistemi. Vyana sistemi. Versal sisteminin əsas prinsipləri. Beynəlxalq münasibətlər tarixinin dövrləri.

## Beynəlxalq münasibətlər nəzəriyyəsi

Beynəlxalq münasibətlər nəzəriyyəsinin obyekti və predmeti. Beynəlxalq münasibətlər nəzəriyyəsinin tədqiq etdiyi məsələlər. Beynəlxalq münasibətlərin xüsusi nəzəriyyələri. “Böyük debatlar”: birinci, ikinci, üçüncü debat. Beynəlxalq münasibətlər nəzəriyyəsinin inkişaf mərhələləri.

## Müasir beynəlxalq münasibətlər sisteminin yaranması

Beynəlxalq münasibətlər sisteminin aktorları. Beynəlxalq hökumətlərarası təşkilatlar və onların yaranma səbəbləri. Qeyri-hökumət təşkilatları. Dünya dövlətlərinin qrupları. Beynəlxalq təşkilatların yaranma tarixi. Beynəlxalq təşkilatların təsnif prinsipləri.

## Xarici siyasət

Xarici siyasətin məzmunu. Xarici siyasətin məqsədləri. Daxili və xarici siyasətin qarşılıqlı münasibəti. Xarici siyasətin elementləri. Xarici siyasətin həyata keçirilməsinin üsul və vasitələri.

## Diplomatiya

Diplomatiyanın mahiyyəti. Onun əsas metodu. Diplomatiyanın məqsədi. Diplomatiyada istifadə olunan vasitələr. Beynəlxalq hüquq və diplomatiya.

## Diplomatiyanın yaranma və inkişaf tarixi

Diplomatiyanın tarixindən. Manu qanunları qədim Şərq diplomatiyasının abidəsi kimi. Orta əsrlərdə diplomatiya. Vyana və Aahen konqresləri. Orta əsrlərdə Azərbaycan diplomatiyası.

## Diplomatik fəaliyyət

"Milli maraq" anlayışı. Diplomatiyada fransız metodu. Köhnə və yeni diplomatiya. "Koalisiya diplomatiyası". Diplomatiyanın xüsusiyyətləri. Diplomatın səciyyəvi xüsusiyyətləri. İkitərəfli və çoxtərəfli diplomatiya.

## Xarici əlaqə orqanları

Xarici əlaqə orqanlarının qrupları. Mərkəzi orqanların tərkibi. Dövlət başçısı xarici əlaqələrin əsas orqanıdır. Hökumət başçısının fəaliyyəti. Xarici işlər nazirliyi, onun vəzifələri, fəaliyyət istiqamətləri. "Diplomatik şöbə", "diplomatik sənəd", "diplomatik xidmət", "diplomatik qəbul" anlayışları. Nota.

## Dövlətin tanınması və diplomatik münasibətlərin yaranması

De-fakto tanıma. De-yure tanıma. Diplomatik tanıma haqqında razılaşmalar. Münasibətlərin kəsilməsi. Diplomatik əlaqələr haqqında Vyana konvensiyaları. Etimadnamə. Geri çağırılma sənədi. "Səyyar səfir".

## Xaricdəki diplomatik nümayəndəliklər

Səfirliklərin təsis edilməsi. Səfirliklərin funksiyaları. Konsulluqların funksiyaları. Konsul fəaliyyətinin istiqamətləri. Xüsusi missiyaların növləri. Xüsusi missiyanın funksiyasının bitməsi.

## Nümayəndəliyin hüquqi statusu və personalı

Toxunulmazlıq və diplomatik immunitet. Diplomatik pasport. Diplomatik personal. Səfirliklərin şöbələri. Səfirliklərin informasiya mənbələri. "Diplomatik xidmət", "retorsiya", "duayen" anlayışları.

## Diplomatik sənədlər

Verbal və şəxsi notalar. Kiçik məktublar. Memorandum. Səfirliklərin hesabatı. Siyasi məktub.

## Diplomatik rütbələr

«Diplomatik rütbə» anlayışı. Diplomatik nümayəndəlik başçılarının rəsmi adları. Xarici işlər nazirliyi aparatının diplomatik rütbələri. Attaşelər. Xüsusi attaşelər və onların vəzifələri.

## Diplomatik korpus və diplomatik nümayəndəliyin funksiyaları

Diplomatik korpusun tərkibi. Diplomatik korpusun duayeni. Nümayəndəliklərin funksiyaları.

## Diplomatik protokol

Diplomatik protokol qaydaları və onlara əməl olunması.

## Diplomatik qəbullar

Diplomatik qəbulların mahiyyəti. Diplomatik qəbulların növləri.

## Münaqişə

Münaqişənin yaranma səbəbləri, onun formaları. Destruktiv və konstruktiv münaqişələr. Daxili və xarici münaqişələr. Beynəlxalq münaqişələr və onların öyrənilməsi. Münaqişələrin tənzimlənmə metodları. Terrorizm və onun formaları.

## Müharibə

Müharibənin xüsusiyyətləri. Müharibənin təsnif meyarları. Ölkələrarası müharibələrin azalma səbəbləri.

## Beynəlxalq əməkdaşlıq

Əməkdaşlığın əsası və məqsədi. Dövlətlərarası əməkdaşlığın növləri. Beynəlxalq rejimlər.

## Beynəlxalq əməkdaşlıq və inteqrasiya

"Britaniya məktəbi". Beynəlxalq cəmiyyət. Konstruktivizm və tarixi institusionalizm. İnteqrasiya və dövlətlərarası əməkdaşlığın əlaqəsi. Bu məsələləri öyrənən nəzəri məktəblər.

## Beynəlxalq inteqrasiya

İnteqrasiya prosesi. Regional inteqrasiya. İnteqrasiyanın səbəbləri və xüsusiyyətləri. İnteqrasiyanın mənfi və müsbət cəhətləri. Demokratikləşmə.

## Qloballaşma

Qloballaşmanın yaranma səbəbləri. Bu prosesin üstün cəhətləri. Qloballaşmanın xüsusiyyətləri. "Dayanıqlı inkişaf" proqramı.

## ƏDƏBİYYAT


### *Azərbaycan dilində:*

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. IVh. Sintaksis. B., «Şərq-Qərb», 2007
2. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri. B., «Maarif», 1989
3. Axundov A. Azərbaycan dilinin fonetikası. B., «Maarif», 1984
4. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. B., «Elm», 2005
5. Ağabəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. B., 2007
6. Ali məktəblərdə xarici tələbələr üzrə hazırlıq kursu üçün «Azərbaycan dili» fənninin proqramı. Tərtib edən: R.Həbibli. B., Bakı Univers.nəşr., 2006
7. «Azərbaycan dili və nitq mədəniyyəti» fənni üzrə proqram (Bakalavr hazırlığı üçün). Tərtib edən: S.Abdullayeva. B., 2008
8. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. B., «Şərq-Qərb», 2006
9. Bakalavr hazırlığı üçün «Müasir Azərbaycan dili» fənninin proqramı. B., Bakı Univers. nəşr., 2004
10. Beynəlxalq münasibətlər lüğəti. Tərtibçi: B. Atakişiyev. B., 2009
11. Cəfərov S. Müasir Azərbaycan dili. II h. Leksika. B., «Şərq-Qərb», 2007
12. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I h. Fonetika. B., «Şərq-Qərb», 2007

13. Ələkbərova X., Hacıyeva M. Nitqin elmi üslubu (dərslik). B., «Azərbaycan Milli Ensiklopediyası», NPB., 2003
14. Həbibli R. Azərbaycan dili (dərslik). B., «Təhsil» NPM, 2010
15. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti (dərslik). B., «Azərbaycan», 2002
16. Hüquq ensiklopedik lüğəti. B., Azərb.Ensiklop., 1991
17. Hüseynov L. Beynəlxalq hüquq (Dərslik). B., «Hüquq ədəbiyyatı», 2002
18. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. B., «Şərq-Qərb», 2007
19. Qarayev A., Cəfərov S., Cəfərova K. Avropa mənşəli sözlərin izahlı lüğəti. B., «Maarif», 1999
20. Qasımova H. Xarici əlaqələr hüququ (Dərslik). B., Bakı Univers. nəşr., 2007
21. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I c. B., «Nurlan», 2003
22. Qurbanova M., Abdullayeva M. Azərbaycan dili (dərs vəsaiti). B., Bakı Univers. nəşr., 2006
23. Məmmədov A. Diplomatik lüğət. B., QAPP-POLİQRAF, 2001
24. Nitqin elmi üslubu üzrə proqram (mühəndis-texniki və kimya-biologiya təmayüllü). B., «Azərbaycan Milli Ensiklopediyası», NPB, 2003
25. Sadıxov F. Diplomatiya və diplomatik xidmət. B., Azərnəşr, 1993

***Rus dilində:***

26. Абаев В. Практикум по научному стилю речи для студентов, изучающих международные отноше-

ния и международное право. Учебное пособие. Алматы, КазНПУ, 2010
27. Алеева А. Русский язык (научный стиль речи) ч.1, Тамбов, изд-во ТГТУ, 2003; ч.2, 2004
28. Ахманова О. Словарь лингвистических терминов. М., «Сов.энцикл.», 1966
29. Крылова Н. Программа по русскому языку как иностранному. Профессиональный модуль. Первый уровень владения русским языком в учебно-профессиональной сфере. Специальности: журналистика, связи с общественностью, политология, международные отношения, история, философия. М., РУДН, 2010
30. Кулик А. и др. Профессия – дипломат. Профессиональный модуль «Международные отношения», «Политология». М., 2007
31. Митрофанова О. Научный стиль речи: проблемы обучения. М., «Русский язык», 1985
32. Русский язык как иностранный. Методика обучения русскому языку: учеб.пособ.для высш.учеб. завед. (Г.М.Васильева и др.). М., «Владос», 2004
33. Учебное рабочая программа по русскому языку (научный стиль речи). Сост.: Сафронова Т., Романовская М., БГУ, 2010

***İnternet resursları:***

ict.az/az/index.php
e-qanun.az/files
bsu-edu.org
window.edu.ru
www.bsu.by/cache/pdf
www.studmed.ru

lib.madi.ru
profobrazovanie.ucoz.ru
web-local.rudn.ru
www.langrus.ru
books.google.com/books/about
www.gramota.ru/biblio/magazines/mrs
news2.ssla.ru
kaznpu.kz/ru